# “Elm və həyat”ın yeni sayı

**AMEA-nın “Elm və həyat” elmi-populyar jurnalının 2024-cü ildə 2-ci sayı nəşr olunub.**

Yeni say Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Bakıda Botanika İnstitutunun yeni binasının açılış mərasimində çəkilmiş foto və ardınca akademik İsa Həbibbəylinin “Azərbaycan Elmlər Akademiyasının Nizamnamələri” məqaləsi ilə açılır.

“Yeniləşən akademiya” rubrikasında fəlsəfə elmləri doktoru Füzuli Qurbanovun “AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı” məqaləsinin davamı, “Nobel mükafatçısı Əziz Səncər Azərbaycanda” rubrikasında isə AMEA Prezidenti akademik İsa Həbibbəylinin dəvəti ilə ölkəmizdə səfərdə olan məşhur alimin görüşləri, iştirak etdiyi tədbirlər və Naxçıvana səfəri haqqında ətraflı məlumatlar və mədəniyyət üzrə fəlsəfə doktoru Nəzmin Cəfərovanın “ Əziz Səncər: mən Türk dünyasının birliyini görmək istərdim, bu mənim ən böyük arzumdur” adlı ümumiləşdirilmiş xronika yazısı təqdim olunur.

Nəşrin bu sayında AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin “Loqotip müsabiqəsi: nəticələr və perespekrivlər”, fəlsəfə üzrə fəlsəfə doktoru Firuzə Əliyevanın “COP29 çərçivəsində ekoloji bilik və ekoloji şüur”, biologiya üzrə fəlsəfə doktoru Zenfira Qədimovanın “Sağlam ekoloji mühit insan uzunömürlülüyünun qarantıdır”, memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlının “Tuğun memarlıq irsi”, biologiya üzrə fəlsəfə doktoru Şahvələd Əliyev və landşaftşünas Nəsibə Məmmədovanın “Füzulinin turizm əhəmiyyətli abidələri”, tarix elmlər üzrə fəlsəfə doktoru İsmayıl Ümudlunun “ Şəhriyar xalq romanının ikinci əlyazması” sərlövhəli yazıları və s. məqalələr dərc edilib.




Bundan əlavə “Türk dünyası” rubrikasında Kuranbek Aset və Qazis Telebayevin, Şəmsəddin Kuzəçinin, Əzizağa Ələkbərlinin, İlhami Cəfərsoyun, Rəşid Fətəliyevin və “Naxçıvan muxrariyyəti” rubrukasında tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılovun, biologiya elmləri doktoru İsmayıl Məmmədov və aqrar elmlər üzrə fəlsəfə doktoru Pərviz Fətullayevin məqalələri verilib.

Jurnalda, həmçinin “Qarabaq”, “Dünya elm aləmində”, “Memarlıq və incəsənər”, “Meredian”, “Fotokimya”, “Faşizm üzərində qələbə” və “Sağlamlıq dünyası” bölməsində yer alan məqalələrlə də tanış olmaq mümkündür.

Jurnalın baş redaktoru, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir.

***XQ***

Xalq qəzeti .- 2024.- 1 avqust (№ 161).- S.10.